**İngilis dili Müəllimlərinin Peşəkarlıq Səviyyəsinin Təkmilləşdirilməsi və Sertifikasiyası Layihəsi**

## Layihə haqqında ümumi məlumat

Azərbaycan Respublikası Təhsil Nazirliyi, British Council, Microsoft və Mədəd Azərbaycan "İngilis dili Müəllimlərinin Peşəkarlıq Səviyyəsinin Təkmilləşdirilməsi və Sertifikasiyası" layihəsinə start vermişdir.

Layihə çərçivəsində seçiləcək 300 nəfərə qədər ingilis dili müəlliminin pedaqoji bilikləri və təhsildə informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə bacarıqları qiymətləndiriləcək, fərdi peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi imkanları təmin olunacaq və beynəlxalq sertifikasiya həyata keçiriləcək. Son nəticədə müəllimlərin motivasiya strategiyasında layihənin fəaliyyət və mexanizmlərinin inteqrasiyası müzakirə ediləcək. Layihənin ilk mərhələsində iştirak üçün 100 nəfər ingilis dili müəllimi seçiləcək.

## Layihə tərəfdaşları haqqında məlumat

Təhsil Nazirliyi layihənin pilot tətbiqi mərhələsində strateji dəstək göstərəcək. Microsoft korporasiyası layihə iştirakçılarını Microsoft "Texnologiyalarla Tədris" ("Teach with Technology") məzmununu və qiymətləndirmə alətlərini, müəllim sertifikatlaşmasına dair müvafiq məlumatla təmin edəcək və müəllimlərin onlayn əməkdaşlığı üçün onlayn mühitinin yaradılmasına dəstək göstərəcək. British Council Cambridge ESOL "Tədris Bilik və Bacarıqları üzrə İmtahan"ına ("Teaching Essentials Test") hazırlıq və müvafiq sertifikasiya alətlərindən istifadəni təmin edəcək. Mədəd Azərbaycan bu layihədə əsas icraçı təşkilat kimi çıxış edəcək. Layihə çərçivəsində nəzərdə tutulan bütün təlimlər Mədəd Azərbaycan təşkilatı tərəfindən keçiriləcək. Təşkilat həmçinin layihə iştirakçılarını onlayn ünsiyyət və əməkdaşlıq alətlərinə çıxışla təmin edəcək, sertifikasiyanın koordinasiya və idarə olunmasını dəstəkləyəcək.

## Layihədə kim iştirak edə bilər?

- Orta məktəblərdə çalışan ingilis dili müəllimləri

- Ali məktəblərdə çalışan inglis dili müəllimləri

- Pedaqoji kolleclərdə çalışan inglis dili müəllimləri

- Magistratura pilləsində inglis dilin tədrisi üzrə ixtisaslaşan tələbələr

## Layihəyə necə qoşulmaq olar?

Layihədə iştirak etmək istəyənlər www.madad.az veb səhifəsinə daxil olub, "İngilis dili Müəllimlərinin Peşəkarlıq Səviyyəsinin Təkmilləşdirilməsi və Sertifikasiyası" bölməsindəki ərizə formasını (https://docs.google.com/forms/d/167To2I0LM_IF-XVqfAB7n_OEpv1vSn8gVXRrzWTqUsE/viewform) doldurmalıdırlar. Ərizə forması ya onlayn, ya da MS Word formatında doldurulub, 31 yanvar 2014-cü il tarixindən gec olmayaraq ecbs@madad.net ünvanına göndərilməlidir. Qəbul olunan bütün ərizə formalarına baxılacaq və seçim kriteriyalarına cavab verən müəllimlər müsahibə mərhələsinə dəvət

olunacaqlar. Müsahibə layihədə əməkdaşlıq edən dörd təşkilatın nümayəndələri tərəfindən aparılacaq və bu mərhələdə uğur qazanan namizədlər layihənin iştirakçısı seçiləcək.

**<u>İştirakçıların seçim meyarları</u>**

Namizədlər aşağıdakı ümumi seçim meyarları üzrə qiymətləndiriləcəkdir:

- Pedaqoji təcrübə və müxtəlif metodologiyalardan təcrübi istifadə bacarıqları

- İngilis dili fənni üzrə kurikulum biliyi

- Müxtəlif qiymətləndirmə metodları ilə tanışlıq və təcrübə

- İKT savadlılığı

- İKT-nin təhsildə tətbiqi üzrə bilik və bacarıqlar

- Tədris prosesinin idarəedilməsi üzrə bilik və bacarıqlar

- Peşəkarlıq səviyyəsinin artırılması üzrə şəxsi fəaliyyət planı

- Layihə-əsaslı tədris yanaşması ilə tanışlıq və istifadə təcrübəsi

- Müxtəlif təhsil şəbəkələrində və beynəlxalq layihələrdə iştirak

**<u>Layihənin mərhələləri</u>**

Seçim turlarından uğurla keçən namizədlər layihə iştirakçıları kimi aşağıdakı təlimlərə cəlb olunacaqlar:

- Mədəd – Intel ® ”Gələcək üçün təhsil” təlimi

- British Council Cambridge ESOL “Tədris Bilik və Bacarıqları” təlimi

- Microsoft “Texnologiyalarla Tədris” təlimi

Təlimlər qarışıq (onlayn və üz-üzə) formatda 2014-cü ilin fevral-may ayları ərzində keçiriləcək. Hər təlimin əvvəlində iştirakçıların hazırlıq səviyyəsi təyin olunacaq və fərdi inkişaf proqramı hazırlanacaq. Təlimlərin sonunda iştirakçılar 3 sertifikasiya imtahanında iştirak edərək, müvafiq sertifikasiya ilə təmin olunacaq. Sertifikasiya imtahanları müstəqil qurumlar tərəfindən həyata keçiriləcək və nəticədə uğurlu iştirakçılar beynəlxalq səviyyəli sertifikasiya ilə təmin olunacaqlar.

Əlavə məlumat üçün Mədəd Azərbaycan təşkilatına aşağıdakı əlaqə vasitələri ilə müraciət edə bilərsiniz:

Ünvan: 1058/34 Moskva prospekti (keçmiş Tbilisi prospekti)

Bakı AZ1078, Azərbaycan

Telefon: +994 (12) 530 8295

Veb səhifə: www.madad.net

E-poçt: ecbs@madad.net

Əlaqələndirici şəxslər: Xuraman Məmmədova və İradə Hüseynova